

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 208 (21.618)

3 noyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## İkinci Azərbaycan Elm Festivalının Naxçıvan mərhələsi çərçivəsində elmi-populyar məruzələr dinlənilib



*Noyabrın 1-də keçirilən ikinci Azərbaycan Elm Festivalının Naxçıvan mərhələsi Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində elmi-populyar məruzələrlə davam etdirilib.*

Festival iştirakçılarını salamlayan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev elmin inkişafının ölkəmizdə, o cümlədən muxtar respublikamızda daim dövlətimizin diqqət mərkəzində olduğunu qeyd edib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan elm siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan akademik bu gün muxtar respublikada elmin hərtərəfli qayğı ilə əhatə olunduğunu, elmi mühitin formalaşdığını, elm sahəsində yeni-yeni nailiyyətlər əldə edildiyini diqqətə çatdırıb. O, ikinci Azərbaycan Elm Festivalının əldə olunmuş elmi nailiyyətlərin daha geniş təbliğinə xidmət etdiyini qeyd edib, festivalın ilk mərhələsinin qədim elm və mədəniyyət mərkəzi olan Naxçıvanda keçirilməsinin əhəmiyyətini vurğulayıb.

İsmayıl Hacıyev çıxışını "Tarixi biliklər ictimai-siyasi hadisələrin təhlilində mühüm vasitə kimi" mövzusunda məruzəsi ilə davam etdirib. Qeyd edib ki, tarixi biliklər cəmiyyət həyatında baş verən istənilən ictimai-siyasi prosesin düzgün qiymətləndirilməsində mühüm rol oynayır. Bu baxımdan tarixin öyrənilməsi təkcə elm adamları üçün deyil, hər kəs üçün vacibdir.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" mövzusunda məruzəsində multikulturalizmin Azərbaycan xalqının milli dəyərlər sistemindəki rolundan bəhs edib, ədəbi-bədii qaynaqlarda əksini tapmış multikultural dəyərlər haqqında ətraflı söhbət açıb.

"Naxçıvan abidələri Azərbaycan memarlıq elmində" adlı məruzə ilə çıxış edən AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə vurğulayıb ki, Naxçıvan ərazisində dünya miqyaslı bir sıra tarixi-memarlıq abidələri mövcuddur. Onların hər biri Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini özündə əks etdirir. Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir.

Azərbaycan Tibb Universitetinin professoru, "Sağlam Nəsil" İctimai Birliyinin rəhbəri Nigar Kamilovanın "Azərbaycan Respublikasında məcburi köçkünlərin sağlamlıq faktorlarının kompleks tibbi-sosial müayinələri" adlı məruzəsində bu barədə dinləyicilərə ətraflı məlumat verilib.

AMEA Botanika İnstitutunun direktoru, akademik Validə Əlizadə, AMEA "Alimlər evi"nin direktoru, tarix üzrə fəlsəfə doktoru Nuridə Quliyeva, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova çıxış edərək ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin inkişafından, elm sahəsində əldə edilən nailiyyətlərin əhəmiyyətindən bəhs ediblər. Qeyd olunub ki, elmə göstərilən yüksək dövlət qayğısı bu gün müxtəlif elm sahələrinin populyarlaşmasına səbəb olub. Bu gün Azərbaycanda bir sıra sahələrlə yanaşı, elm də inkişaf edir, bu sahədə yeni-yeni nailiyyətlər qazanılır.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Naxçıvan epiqrafik abidələri Azərbaycan tarixinin mənbəyi kimi", həmin institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Naxçıvanın arxeoloji abidələri", şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin "XX əsrin əvvəllərində böyük güclərin geosiyasi maraqlarında Naxçıvanın yeri", tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Kəngərlilərin orta əsr Naxçıvanının ictimai-siyasi həyatında rolu" mövzularında elmi-populyar məruzələri böyük maraqla qarşılanıb.

Məruzələr ətrafında geniş müzakirələr aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

✍ Elnur KƏLBİZADƏ

*Noyabrın 2-də Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Məktəb kitabxanalarının fəaliyyətinin gücləndirilməsi" mövzusunda konfrans keçirilib. Konfransı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi təşkil edib.*

## Məktəb kitabxanalarının fəaliyyəti müzakirə edilib



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açaraq mövzu ilə bağlı məruzə edib. Bildirib ki, 2005-ci ildən indiyədək ümumtəhsil məktəblərinə 2 milyon 354 min 711 nüsxə dərslik verilib. Bunların 202 min 468 nüsxəsi bu ilin avqust-sentyabr aylarında gətirilib. Hazırda müəllim və şagirdlərin ixtiyarında 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə vardır.

Təhsil naziri qeyd edib ki, kitabxanalar təlim-tərbiyə prosesində fəal iştirak etməli, müəllim və şagirdlərə lazımi kitabxana xidməti göstərməlidirlər. Təəssüf ki, ümumtəhsil müəssisələrinin kitabxanaları heç də həmişə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmirlər. Bir çox hallarda kitabxana fonduna daxil olan çap məhsullarının qeydiyyatı uçot kitablarında qeyd edilmir. Daxil olan kitabların kataloqu düzgün hazırlanmır. Bununla yanaşı, bir sıra məktəb kitabxanalarında yeni daxil olmuş ədəbiyyatlar haqqında oxuculara məlumat vermək üçün sərgi təşkil edilmir və ya həmin ədəbiyyata dair bülleten hazırlanmır. Təhsil müəssisələrinin kitabxanalarında iş planlarının hazırlanması, ədəbi-bədii tədbirlərin, kitabxana günlərinin və kitab müzakirələrinin keçirilməsi sahəsində müəyyən qədər iş görülmüş olsa da, mövcud formalar əsasında hesabatların hazırlanması sahəsində bir sıra nöqsanlar mövcuddur. Rayon (şəhər) təhsil şöbələri və təhsil müəssisələrinin rəhbərləri, eləcə də kitabxana müdirləri müəllim, şagird, tələbə və müdavimlərin kitabxanalara kütləvi cəlbinə nail olmalı, məktəblərarası və siniflərarası bədii qiraət günləri, kitab müzakirələri, viktorinaların və kitabxana günlərinin səmərəli keçirilməsini təmin etməli, görkəmli tarixi şəxsiyyətlərin həyat və yaradıcılıqlarına həsr edilmiş müsabiqələr təşkil etməklə kitabxanaların fəaliyyətini müasir tələblər səviyyəsinə qaldırmalıdırlar.

Sonra məruzə ətrafında çıxışlar olub.

✍ Səbuhi HÜSEYNOV

## Elektron xidmətlərin tətbiqi daşınmaz əmlakın qeydiyyatını sadələşdirib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanı informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində görülən işlərin əhatə dairəsini genişləndirib.***

Ali Məclis Sədrinin "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında Fərmanına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuş müvafiq qərarlara uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində elektron xidmətlərin göstərilməsi istiqamətində mühüm tədbirlər görülüb, nəticədə, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyəti və səmərəliliyi artırılıb.

Hazırda komitə tərəfindən 19 adda elektron xidmət göstərilir. Vətəndaşların təklif edilən elektron xidmətlərdən rahat istifadəsini təmin etmək məqsədilə xidmətlər komitənin internet saytında *(www.emlak.nakhchivan.az)* yerləşdirilib və elektron hökumət portalına *(e-hokumet.nmr.az)* inteqrasiya olunub.

Daşınmaz əmlaka dair çıxarışların verilməsi, daşınmaz əmlak obyektləri barədə kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi, ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi, daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı və ləğvi, ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması və ləğvi, daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatı və ləğvi, servitutun və uzufruktun dövlət qeydiyyatı və qeydiyyatın ləğvi, dövlət reyestrində qeydiyyata alınmış daşınmaz əmlaka dair texniki sənədlərin (pasportun və ya plan ölçüsünün) tərtibi, məhv olmuş daşınmaz əmlakın və onun üzərindəki hüquqların dövlət qeydiyyatının ləğvi üçün müraciət etmək, tələb olunan dövlət rüsumu və xidmət haqqını onlayn rejimdə ödəmək imkanları yaradılıb.

Müraciət qəbul edildikdən sonra elektron xidmət istifadəçisi işin icra mərhələləri barədə məlumatlandırılır, icradan imtina edildiyi hallarda istifadəçiyə bildiriş göndərilir.

Vətəndaşların göstərilən elektron xidmətlərə marağının nəticəsidir ki, cari ilin ötən dövrü ərzində komitənin elektron xidmətlərindən 258 fiziki və hüquqi şəxs yararlanıb. Müraciətlərin 32-si daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi, 20-si daşınmaz əmlaka dair çıxarışların verilməsi, 136-sı daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı, 67-si daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi, 3-ü ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması ilə bağlı olub.

Komitənin fəaliyyət istiqamətləri üzrə yeni elektron xidmətlərin istifadəyə verilməsi ilə bağlı işlər davam etdirilir. Məqsəd muxtar respublikamızda əmlak və torpaq məsələləri ilə bağlı problemlərin həllində şəffaf, çevik və səmərəli xidmət göstərməklə əhalinin rahatlığının təmin edilməsinə töhfə vermədir.

**Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

*Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də inzibati və ictimai yaşayış binalarının istiliklə təmin olunmasıdır.*

## Qış mövsümündə Naxçıvan şəhəri istiliklə etibarlı təmin olunacaq

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, bu məqsədlə Naxçıvan şəhərində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq bütün qazanxanalara və istilik şəbəkəsi obyektlərinə baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan borular və siyirtmələr yenisi ilə əvəz olunub.

İstilik təsərrüfatındakı xətlərdə əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış mövsümündə Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb. Baş verə biləcək qəza hallarının vaxtında aradan qaldırılması üçün tədbirlər görülüb, növbətçi elektriklərdən, çilingərlərdən ibarət təmir qrupu, qəza briqadaları yaradılıb.

Əhalinin davamlı olaraq istiliklə təmin edilməsi üçün mərkəzləşdirilmiş qazanxanaların təbii qaz və mazutla, fərdi qazanxanaların isə təbii qaz və dizel yanacağı ilə işləməsi təmin edilib. Yəni qaz təsərrüfatında hər hansı bir qəza baş verərsə, qazanxanalar mazut və dizel yanacağı ilə işləyəcək, istilik sistemində fasilələr yaranmayacaq. İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətlərdə baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının etibarlı istiliklə təmin olunmasına hərtərəfli şərait yaradılıb.

Onu da qeyd edək ki, son illər yeni inşa edilən binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının da istilik sisteminin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilir, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilir. Fərdi qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib. Bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alır, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərinin zədələnmədən aradan qaldırılmasına imkan verir.

2016-2017-ci illərin payız-qış mövsümündə 5 mərkəzləşdirilmiş və 38 fərdi qazanxana vasitəsilə 173 ictimai yaşayış binasının 7634 mənzili və 31 inzibati bina istiliklə təmin olunacaq. Tərtib edilmiş qrafikə uyğun olaraq İstilik Təsərrüfatı və Mənzil-İstismar idarələrinin əməkdaşları tərəfindən ayrı-ayrı ünvanlarda inzibati və ictimai yaşayış binalarının paylayıcı istilik xətlərinə baxış keçirilib, nasazlıqlar aradan qaldırılıb.

Həyata keçirilən məqsədyönlü kompleks tədbirlər onu deməyə əsas verir ki, soyuq qış mövsümünə keçidlə əlaqədar olaraq, yəni noyabr ayının 15-dən aprel ayının 15-dək Naxçıvan şəhəri istiliklə etibarlı şəkildə təmin olunacaq.

✍ Kərəm HƏSƏNOV

*“Naxçıvan ulu tarixi keçmişi olan, qədim azərbaycanlıların yaşadığı bir ərazidir. Mən bu qədim tarixin bütünlüklə öyrəniləcəyinə və əsl həqiqətin öz yerini tapacağına tamamilə inanıram”.* *Ulu öndər Heydər Əliyevin AMEA Naxçıvan Bölməsinin açılışında iştirak edərkən nitqində xüsusi olaraq vurğuladığı bu fikirlər AMEA Naxçıvan Bölməsinin, tarix elminin və Naxçıvanşünaslığın qarşısında duran başlıca prioritet istiqaməti müəyyənləşdirirdi. Ümummilli lider bu müdrik fikrində həm də əsl həqiqətin yerini tapacağından bəhs edirdi. Ulu öndərin yerini tapmasını gözlədiyi əsl həqiqət nə idi? Və illər sonra o əsl həqiqət öz yerini necə tapdı?*

# Tarix –

## *dünənin bu günə yadigarı, bu günün dünənə baxışı*

Antik Roma müəllifi Pliniy Sesiliy Sekund tarix barədə yazırdı: “Tarix əsl həqiqətlərin unudulmaması üçün yazılmışdır”. Tarixin ən böyük həqiqəti isə insan oğlunu inandırmaqdır – şanlı bir keçmişinin var olduğuna inandırmaq. Bu, xalqlar üçün də keçərlidir. O millətlər böyük millətlər sırasına yüksəlirlər ki, onlar tarixləri, tarixi şəxsiyyətləri ilə qürur duymağı bacarırlar. Bu, millətin özünəinamının formalaşması üçün ən böyük şərtdir. Heç də təsadüfi deyildir ki, böyük imperiyalar işğal etmək istədikləri ölkələrin öncə tarixini, ideologiyasını və bununla da, özünəinamını hədəf alırlar. Xalqın özünəinam hissini sındırmaq üçün öncə ona öz tarixinə saygısızlıq hissini aşılamaq lazımdır. Və yaxud da əksinə, bir xalqda özünəinam hissinin formalaşması üçün öncə ona tarixinə hörmətlə yanaşmağı öyrətmək lazımdır.

### *Keçmişlə gələcək arasında...*

Və bu fikirlərin işığında bir daha sovetlər dönəmini xatırlamağa məcburuq: Azərbaycanın sovetləşdirildiyi ilk dönəmlərdə milli ziyalıların repressiyalarını, tarixi-mədəni və tarixi-dini abidələrimizin keçmişin qalıqları adı altında məhvini və tarixi keçmişimizə inamımızın azaldılması üçün guya azərbaycanlıların aborigen olmadığını özündə ehtiva edən saxta tarix konsepsiyasını. XX əsrin 60-cı illərinin sonlarından başlayaraq isə hansısa görünməz bir qüvvə SSRİ-nin siyasi fikir mərkəzlərinin diktəsi altında yazılmış bu saxta tarix konsepsiyasının qarşısını almağa çalışırdı. Bunu “sovet repressiya maşını”nın əzici gücünün boşluqlarından yararlanaraq mədəni inkişaf adı altında etdirir, ənənəvi saxta tarix konsepsiyasının ənənələrini pozan dissident tədqiqatçılar müxtəlif vasitələrlə qorunur, XX əsrin 70-ci illərində isə bizi tariximizin qəhrəmanlıq səhifələri ilə tanış edəcək “Nəsimi”, “Babək”, “Tütək səsi”, “Ulduzlar sönmür”, “Axırıncı aşırım”, “Atları yəhərləyin”, “Dədə Qorqud”, “Nizami” kimi filmlər çəkilirdi. Təbii ki, azərbaycanlıların özünəinam hissinin qaytarılmasına xidmət edən bu məqsədli ideoloji işin müəllifi o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan, gələcək müstəqil Azərbaycanın memarı Heydər Əliyev idi.

XX əsrin ictimai, iqtisadi və sosial böhranla dolu 90-cı illərinin əvvəllərində Azərbaycanda məqsədli ideoloji iş öz yerini “yersiz pafos”a verdi. Elə bu səbəbdəndir ki, bizdə meydanlarda heç bir məntiqə dayanmayan, bir budaqda oturub min budağı silkələyən pafoslu cümlələr səslənəndə ermənilər uzun illər ərzində havadarlarının dəstəyi ilə formalaşdırdıqları saxta tarix konsepsiyası əsasında yazılmış “əsərlərdəki” “tarixi faktları” dünyanın siyasi və elmi dairələrinin müzakirəsinə çıxardılar. Tarixi taleyi daima Azərbaycanla bağlı olmuş ərazilərimizə – Qarabağa və Naxçıvana qarşı həm hərbi, həm də fikri-ideoloji təcavüzə başladılar. Saxta iddialar əsl həqiqətin yerində ayaq açıb yeriməyə çalışdı. Ümummilli lider Heydər Əliyevin Naxçıvanın tarixinin bütünlüklə öyrənilməsindən sonra əsl həqiqətin yerini tapacağına inamını ifadə etməsi də məhz bununla bağlı idi. Təsadüfi deyildir ki, ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyət göstərdiyi dönəmdə Naxçıvan obyektiv və milli alimlərə qucaq açmaqla bu saxta iddiaların qarşısını almağa çalışıb. 1992-1995-ci illərdə Naxçıvanın bir qrup arxeoloji abidələri haqqında tədqiqatların toplu halında nəşr etdirilməsi də məhz bu işin tərkib hissəsi idi.

### *Yeni yol və yeni konseptual baxış*

Ümumilikdə, ən yeni tariximizə nəzər salanda biz Naxçıvan tarixinə yeni konseptual yanaşmanın əsasının 1996-cı ildə “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumundan sonra qoyulduğunun şahidi oluruq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov simpoziumdakı çıxışında demişdir: ***“Bütün bunlar Naxçıvanın yeni istiqamətdə, yeni milli ruhda və gerçək mənbələr əsasında, milli mənafe əsas götürülməklə əsl tarixinin yazılmasını meydana çıxarmalıdır”.*** Bəli, tarixə dair onlarla, hətta yüzlərlə kitab yazıb ənənəvi konsepsiyadan çıxış etmək olar, lakin bircə nitq ilə yeni tarixi konsepsiyanın yaradılmasına SƏBƏBKAR da olmaq olar. Məhz bu fikirlər təkcə Naxçıvan tarixinin öyrənilməsini yox, həm də, ümumilikdə, Naxçıvanda tarixi keçmişimizə münasibətin necə olmalı olduğunu müəyyən edirdi.







Naxçıvan Muxtar Respublikasının 75, 80 və 85 illik yubileyləri ilə əlaqədar ulu öndər Heydər Əliyev və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış sərəncamlar Naxçıvan tarixinin öyrənilməsinə yeni konseptual yanaşmanın hüquqi bazasını təmin edən sənədlər kimi tarixə düşdü. Muxtar respublikanın yubileyləri ilə əlaqədar keçirilən elmi konfranslarda Naxçıvan tarixinin mühüm dövrləri ilə bağlı yeni istiqamətlər müəyyən edildi. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 4 fevral 1999-cu il tarixli Fərmanının özü yeni bir istiqamətin – Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsinin zəruriliyini ortaya qoydu. Sərəncamın 2-ci bəndinə uyğun olaraq Naxçıvanın tarixini və mədəniyyətini tədqiq etmək üçün yaradılmış elmi qurumun qarşısına Naxçıvanın tarixi coğrafiyası adlı kitabın nəşri və “Naxçıvan tarixi” adlı xəritələr toplusunun hazırlanması vəzifə kimi qoyuldu. Bu qurumun fəaliyyəti nəticəsində “Naxçıvan Ensiklopediyası” qısa müddətdə hazırlandı və 2002-ci ildə nəşr edildi.

### *Əsl həqiqətə doğru...*

2002-ci il Naxçıvan tarixi üçün, ümumilikdə, Naxçıvan elmi üçün çox ciddi əhəmiyyətə malik daha bir hadisə ilə yadda qaldı. Ulu öndər Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradıldı və məhz bölmənin açılışında ümummilli lider Heydər Əliyev Naxçıvanın ulu tarixinin tədqiqi ilə əsl həqiqətin öz yerini tapacağını vurğuladı. AMEA Naxçıvan Bölməsinin yaradılması Naxçıvanın tarixi ilə bağlı tədqiqat işlərinin aparılmasını və yeni tarixçi kadrların hazırlanması prosesini sürətləndirdi.



Naxçıvanda “Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri”, “Nuh Peyğəmbər, dünya tufanı və Naxçıvan”, “Naxçıvan: ilkin yaşayış və şəhərsalma yeri kimi”, “Naxçıvan:ilkin şəhər və Duzdağ” və başqa mövzularda onlarla simpozium və elmi konfransların təşkili və keçirilməsi təkcə öldə olunmuş elmi nəticələrin müzakirəsinə yox, həm də dünyanın müxtəlif ölkələrinin elm nəhənglərinin diqqətinin Naxçıvana yönəldilməsinə xidmət edirdi. Heç də təsadüfi deyildir ki, son 20 il ərzində biz ABŞ, Fransa, Rusiya, Türkiyə kimi ölkələrin tanınmış elm adamlarının qələmindən Naxçıvanla bağlı həqiqətləri ortaya qoyan çox ciddi tədqiqat əsərlərinin – monoqrafiya və məqalələrin nəşrinin şahidi olmuşuq. 2006-cı ildən başlayaraq Naxçıvan ərazisində məhz Naxçıvan arxeoloqlarının rəhbərliyi ilə Azərbaycan-Fransa, Azərbaycan-ABŞ birgə arxeoloji ekspedisiyalarının aparılmasının özü Naxçıvanda tarixə, tarix elminə göstərilən yüksək diqqətin və qayğının ifadəsi, Naxçıvan elminin beynəlxalq aləmdəki yerinin göstəricisidir.

### *Tarix onun şahidlərinin dili ilə*

Naxçıvan tarixinə yeni münasibət və Naxçıvanda tarixə yeni münasibət təkcə tarixi əsərlərin yazılması işi ilə yekunlaşmır. Bu, işin, sadəcə, bir tərəfidir. Tariximizin canlı şahidləri olan abidələrimizin bərpası istiqamətində 1996-cı ildən bu günə qədər görülən nəhəng işlər tariximizin tədqiqi ilə yanaşı, təbliğini də reallaşdırdı. Çünki Naxçıvan ərazisində mövcud olan Azərbaycan xalqının yaratdığı maddi-mədəniyyət inciləri – tarixi abidələr qədim diyarımıza əsassız iddialar irəli sürənlərə qarşı ən layiqli cavab, dünya elm aləmi üçün isə ən əsaslı sübutdur. Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması, Naxçıvanda “Dədə Qorqud” meydanının salınması, Nuh Peyğəmbərin məzarüstü türbəsinin bərpa edilməsi, Möminə xatın və Qarabağlar memarlıq komplekslərinin konservasiyası, “Gəmiqaya” Tarix-Bədii Qoruğu və muzeyinin yaradılması, Əshabi-Kəhf, İmamzadə, buzxana abidələrinin, Came məscidinin, Zaviyə mədrəsəsinin, Yusif Küseyir oğlu türbəsinin, Xan sarayının, Naxçıvanqalanın, Culfada Xanəgah Abidə Kompleksinin, Əlincə qalasının, Gülüstan abidəsinin əsaslı bərpası, tarixi maddi-mədəniyyət nümunələrimizi, xüsusən qoç heykəllərini qorumaq və bu nadir nümunələri öyrənmək və təbliğ etmək məqsədilə Açıq Səma Altında Muzeyin yaradılması və bir yazıya sığışmayacaq qədər görülən digər işlər məhz yuxarıda sadaladığımız amallara xidmət edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 dekabr 2005-ci ildə imzaladığı “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar haqqında pasport qeydiyyat kartları hazırlanmış abidələrin sayı 1200-dən artıqdır. 3700 metr yüksəklikdə yerləşən “Gəmiqaya” muzeyi dünyada olan muzeylər sırasında ən yüksəkdə yerləşən muzeylərdən biri və bəlkə də, birincisidir.

### *Tariximizə yeni yanaşmanın fundamental ifadəsi*

1996-cı ildən ötən illər ərzində elmə, tariximizin öyrənilməsinə, tarixçilərə göstərilən yüksək dövlət qayğısının məntiqi nəticəsi olmalı idi. Bu illər ərzində yazılan, hazırlanan yüzlərlə kitablar, monoqrafiyalar, məqalələrin hər biri Naxçıvanın tarixinə yeni yanaşmanın müxtəlif konturlarını, cizgilərini müəyyənləşdirirdi. Və təbii ki, tariximizə yeni yanaşmanın fundamental əsaslarını ifadə edən əsərlər meydana çıxmalı idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 avqust 2012-ci il tarixli “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” Sərəncamı məhz belə bir əsərin meydanaçıxma zamanının yetişdiyinin göstəricisi oldu. 2013-2015-ci illər ərzində üçcildlik “Naxçıvan tarixi” yüksək səviyyədə hazırlanaraq nəfis tərtibatda nəşr edildi və bu əsər tariximizə yeni yanaşmanın fundamental ifadəsi oldu. Lakin bu, son deyil, yeni bir başlanğıcdır. Bu günə qədərki tədqiqatlar tariximizin yeni yanaşma ilə ümumi mənzərəsinin formalaşmasına xidmət edirdisə, indi artıq tariximizin ayrı-ayrı nüanslarının istiqamətlərinin öyrənilməsi zamanını tələbidir.

### *Tarix yaradanlar, tarix yazanlar və tarixini öyrədənlər...*

Bəli, elə o dediyimiz zamanın bütün dövrlərində biz bir millət olaraq əməllərimizlə tarix yaratmışıq. Babalarımız qəhrəmanlıqları ilə tarix yaradanda sonradan bu qəhrəmanlıq tarixinə sahib çıxan qonşular bu tarixi özlərinə sərf edən formada yazmaqla məşğul idilər. Son 20 il ərzində isə Naxçıvanda həm tarix yaradılıb, həm də tarix yazılıb. Lakin iş bununla da bitməyib. Yaşadılan və yazılan tarixi həm də gələcək nəsillərə ötürmək bir vəzifə kimi qarşıda durur. Və Naxçıvanda ali məktəb tələbələrinin, orta məktəb şagirdlərinin, müxtəlif dövlət qurumlarının, idarə və müəssisələrin əməkdaşlarının tariximizin saxlanc yeri olan muzeyləri ziyarətlərinin təşkili, son illər ərzində Naxçıvanın tarixi ilə bağlı yazılmış fundamental tədqiqatların nəinki elm və ali təhsil müəssisələrinə, hətta muxtar respublikada fəaliyyət göstərən ən ucqar dağ kəndlərinin məktəblərinə də çatdırılması bu tarixi gələcək nəsillərə öyrətmək üçündür.

### *Tariximizi öyrənirik və öyrədirik ki, taleyimizi özümüz müəyyənləşdirək*

Belə bir müdrik fikir var: “Tarixini bilməyənlərin coğrafiyasını başqaları müəyyənləşdirir”. Əslində, təkcə coğrafiyasını yox, həm də, ümumilikdə, taleyini. Son 20 il ərzində isə Naxçıvan Muxtar Respublikasında tarixi keçmişimizə formalaşdırılan münasibət isə burada yaşayan hər bir azərbaycanlının Azərbaycana mənsubluğu ilə fəxr etməsinə səbəb olub. Bu özünəinam hissi isə Naxçıvanın bugünkü və gələcək inkişafının qarantına çevrilib.

*Və ən nəhayət... Bu gün heyranlıqla Naxçıvanın inkişafından danışan, yazan hər kəsi əmin edə bilərik. 1996-cı ildə tarixə münasibəti dəyişən TARİXİ MÜNASİBƏT olmasaydı, bu gün hər kəs naxçıvanlıların Vətənə və torpağa bağlılıqlarından, məhdud şərtlər altında Naxçıvan intibahının gerçəkləşdirilməsindən bəhs edə bilməyəcəkdi. Çünki bu intibahı gerçəkləşdirmək üçün tarixinə, keçmişinə, özünə inam olmayacaqdı.*

**Elnur KƏLBİZADƏ**

# Ərzaq qıtlığından bolluğa gedən yol

– Qonşu, sabah sübhdən gedək, yoxsa ötən dəfəki kimi əliboş qayıdacağıq, – deyib Teyyub kişi ilə xudahafizləşdik.

Ertəsi gün telefonun səsinə yuxudan qalxıb saata baxdım ki, 6-ya işləyib. Dəstəyi götürdüm:

– Alo, sabahınız xeyir, qonşu yenə yatıb qalmısan? – deyən Teyyub kişi: – Tez gəl, qonşular yığışıb, gedirik.

Təqribən, 10-15 dəqiqədən sonra, o vaxtlar el arasında “57 bazarı” adlanan yerə gəldim. Qızğın söhbət gedirdi.

– Ay qardaş, belə də iş olar? Nə vaxta qədər 1-2 kiloqram ət almaq üçün Cəhriyə, ya da Nehrəmə gedəcəyik?

Hər kəs düşündüyü kimi ortaya atılan suala münasibət bildirirdi.

Elə söhbətə də Teyyub kişi yekun vurdu: – Pis günün ömrü az olar. Gəlin gedək.

– Hara? – deyə hamı Teyyub kişinin üzünə baxdı.

– Cəhriyə.

Təklifə narazılıq edənlər də oldu.

– Əşi, Cəhriyə dünən getmişdik də, əliboş qayıtdıq.

– Ay bala, sən yatıb saat 9-da gedəndə, əlbəttə, əliboş qayıdacaqsan. Bir də ki, atalar yaxşı deyib: “Danışıq dananı qurda verər”. Yolçu yolda gərək.

Yolyoldaşlarımızdan biri:

– Ay Zahir əmi, sən də bizim kimi Cəhriyə piyada gedəcəkdin, bir ətək pul verib o avtomobili niyə alırdın? – deyib onun üzünə baxdı.

– Ay oğul, mən hardan bilərdim ki, dünyada neft ölkəsi kimi tanınan Azərbaycanda benzin tapılmayacaq. Əgər siz benzin tapa bilirsinizsə, mən qulluğunuzdayam, – deyib dayandı.

Hər kəs bir ağızdan dedi: – Benzin tapmaq müşkül məsələdir, özümüzü yormayaq.

El arasında dördyol ayrımı adlanan yerə çatmışdıq ki, Zahir kişinin halı pisləşdi:

– Oğul, imkan olsa, mənə də 2 kiloqram ət alarsan, – deyib pulu mənə uzatdı.

Beləcə, pay-piyada getdik Cəhriyə. Sübh tezdən olmasına baxmayaraq, kəndin mərkəzində yerləşən meydanda, daha doğrusu, qəssabxananın qarşısında qələbəlik idi.

– Qardaş, hər adama 2 kiloqramdan artıq ət vermə. Qoy hamıya çatsın, – deyən bir ağsaqqal, necə deyərlər, burada qayda-qanun yaradırdı.

Hər birimiz 2 kiloqram “ət normamızı” aldıq. Ancaq mən narahat idim. Zahir kişiyə də ət alacağıma söz vermişdim. Növbəyə nəzarət edən ağsaqqal kişiyə yaxınlaşıb yolyoldaşımızın başına gələn əhvalatı ona danışdım. Dinlədi. Yaşarmış gözlərini silib dedi:

– Gör nə günlərə qaldıq.

Sonra da növbədə dayananlardan üzr istəyib:

– Bir nəfər ağır xəstəmiz var, icazə verirsinizsə, ona da 2 kiloqram ət göndərək, – dedi.





Heç kəs etiraz etmədi. Zahir kişinin də “ət normasını” mənə verdilər. Bəlkə də, ömrümdə ogünkü qədər sevinməmişdim. Növbədə dayananlara minnətdarlıq edib piyada döndük şəhərə. Zahir kişinin qapısını döydüm. Əti verdim.

– Oğul, oruc tutmasaydım, sizə bu əziyyəti verməzdim, – deyib minnətdarlıq etdi.

Beləcə, 1-2 kiloqram ət almaq üçün uzun-uzadı yol gedib, saatlarla vaxt itirmək bir neçə il davam etdi. Bu, 90-cı illərin əvvəlinə şahidlik edən hər kəsin gündəlik qayğısı, problemi idi. İnsanlar ərzaq qıtlığı ilə üz-üzə qalmışdılar. Bir təsərrüfatsızlıq hökm sürür, əkinçilik və heyvandarlıqla məşğul olan kəndli əsas məşğuliyyətindən uzaq düşmüşdü. Həmin dövrdə Naxçıvandan başlanan, sonra ölkəmizin digər regionlarında tətbiq edilən aqrar islahatlar öz bəhrəsini verdi, MDB məkanında belə, bu müsbət təcrübədən istifadə olundu. Ayrı-ayrı sahələrin inkişafı ilə bağlı dövlət proqramları qəbul edildi, icrası uğurla başa çatdırıldı.

Ötən müddət ərzində muxtar respublikamızda digər sahələrdə olduğu kimi, ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib, daxili bazarın keyfiyyətli yerli ərzaq məhsulları ilə təminatında mühüm rol oynayan ətlik-südlük istiqamətli heyvandarlıq təsərrüfatlarının yaradılmasına və mövcud təsərrüfatların genişləndirilməsinə əlverişli şərait yaradılıb. Heyvanların cins tərkibi yaxşılaşdırılıb, muxtar respublikaya, ümumilikdə, 1937 baş damazlıq cins mal-qara gətirilərək lizinq yolu ilə satışı həyata keçirilib. Heyvanların cins tərkibinin yaxşılaşdırılması təkcə xaricdən alınıb gətirilən mal-qara ilə məhdudlaşmayıb. “Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatında yerli şəraitə uyğunlaşdırılmış damazlıq düyələr təsərrüfatlara verilib. Baytar texniklər süni mayalandırma avadanlıqları və texnika ilə təmin olunublar. Ətlik və südlük maldarlığın inkişafı istiqamətində 40 mindən yuxarı toxum preparatları gətirilərək yerli cins mal-qarada süni mayalanma aparılıb. Ümumilikdə, 2008-2015-ci illər ərzində muxtar respublikada 43 min 132 baş mal-qara mayalandırılıb və 28 min 760 baş sağlam bala alınıb. Bu dövrdə muxtar respublikada yeni yaradılan və genişləndirilən heyvandarlıq təsərrüfatlarının sayı 275-ə çatdırılıb. İri heyvandarlıq təsərrüfatları ilə yanaşı, fərdi təsərrüfatlarda da artım müşahidə olunub. Artıq – yemə çəkdiyim xərc çıxmır, – deyib heyvandarlıqdan uzaq düşən kəndlinin təsərrüfatında Almaniya, Avstriya, Türkiyə və İran İslam Respublikasından alınıb gətirilmiş ətlik, südlük cins mal-qara var. Həyata keçirilən tədbirlər nəticəsində 1 oktyabr 2016-cı il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 114 min 387 başa, qoyun və keçilərin sayı isə 702 min 316 başa çatdırılıb.

Muxtar respublikada ət, süd və digər ərzaq məhsulları istehsal edən müəssisələrin modernləşdirilməsi və bu sahədə yeni müəssisələrin yaradılması istiqamətində Sahibkarlığa Kömək Fondu tərəfindən müxtəlif investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət maliyyə dəstəyi göstərilir. “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən yaradılan, istehsal gücü saatda 3-3,5 ton və istehsal gücü saatda 10 ton olan 2 qarışıq qüvvəli yem istehsalı sahəsinin, Şərur rayonunda gündəlik istehsal gücü 10 ton olan qarışıq yem və Culfa rayonunda gündəlik istehsal gücü 500 kiloqram olan yem istehsalı sahələrinin fəaliyyətə başlaması heyvandarlıq təsərrüfatlarının inkişafında mühüm rol oynayıb.

Ətlik-südlük heyvandarlıq təsərrüfatlarının illik qüvvəli yemə tələbatı 50 min tondan çox olan muxtar respublikamızda bu müəssisələrin istifadəyə verilməsi ilə qüvvəli yemə olan tələbat 100 faiz ödənilib, idxaldan asılılıq tamamilə aradan qaldırılıb. Bu sahənin gələcək perspektiv inkişafı da diqqət mərkəzində saxlanılır. Hazırda “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən gündəlik istehsal gücü 10 ton olan qarışıq yem istehsalı sahəsinin yaradılması davam etdirilir.

Ümumilikdə, aqrar sahədə aparılan tədbirlər ərzaq zənbilimizin əsasını təşkil edən ət, süd və süd məhsullarının artımına da müsbət təsir göstərir. 2016-cı ilin yanvar-sentyabr aylarında muxtar respublikada diri çəkidə 17303,3 ton ət istehsal olunub.

Heyvandarlıq təsərrüfatlarını yerli şəraitə uyğunlaşdırılmış məhsuldar cins mal-qara ilə təmin edən “Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatı bu sahənin inkişafında mühüm rol oynayıb. Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib, damazlıq istiqamətli heyvandarlıq təsərrüfatının yaradılması üçün Babək rayonunun ərazisində, Naxçıvan-Culfa magistral avtomobil yolunun kənarında torpaq sahəsi ayrılıb. Heyvandarlıq təsərrüfatında mal-qaranın bəslənilməsi üçün 6 bina inşa olunub. Həmin binalarda müasir texnoloji avadanlıqlar quraşdırılıb, binanın təmizlənməsi, mal-qaranın yemlənməsi və suvarılması üçün tam avtomatlaşdırılmış xətt istifadəyə verilib, havalandırma sistemi qurulub. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti vasitəsilə Almaniya, Avstriya, Türkiyə və İran İslam Respublikasından alınıb gətirilən damazlıq düyələr kompleksdə yerli şəraitə uyğunlaşdırıldıqdan sonra digər heyvandarlıq təsərrüfatlarına və fərdi sahibkarlara lizinq yolu ilə satılır.

Vaxtilə Naxçıvan bazarında özünə yer tutan, xaricdə istehsal edilən, mənşəyi məlum olmayan ət və süd məhsullarının yerini indi yüksək keyfiyyəti ilə seçilən Naxçıvan məhsulları tutub. Bir vaxtlar ət tapmaq müşkülə çevrilən Naxçıvanda bu məsələ, necə deyərlər, kökündən həll edilib. Nəinki Naxçıvan şəhərində, hətta ucqar dağ və sərhəd kəndlərində belə, tikilib istifadəyə verilən xidmət mərkəzlərində bu məhsulun satışı üçün nümunəvi şərait yaradılıb.

***Onu da qeyd etmək yerinə düşər ki, Naxçıvanda istehsal olunan ət və ət məhsulları nəinki daxili bazarın tələbatını ödəyir, hətta Bakı bazarında, digər regionlarda satışa çıxarılır, xarici bazarlara ixrac olunur. Muxtar respublikamızdan kənarda yaşayan, Naxçıvan məhsullarının dad-tamına bələd olan, lakin məlum səbəblər üzündən bir vaxtlar bu məhsullara tamarzı qalan tanış-bilişin, qohum-əqrəbanın ağız dadı, “Naxçıvan payı” özünə qaytarılıb. İndi bazarlarda bolluqdur. Bu bolluq müstəqilliyimizin və bu illərdə həyata keçirilən ardıcıl və məqsədyönlü aqrar islahatların bəhrəsidir.***

**Kərəm HƏSƏNOV**

***Yazı “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür***

*İstehsal müəssisələri*

# Ləzzət Biskvit və Şokolad Fabrikinin istehsal həcmi getdikcə artırılır

## *“Nati” əmtəə nişanı ilə buraxılan məhsullar İraq bazarına da çıxarılacaq*








*Naxçıvan Muxtar Respublikası dövlət müstəqilliyimizin son iyirmi ilində böyük bir inkişafa imza atıb. Bu inkişafda iqtisadiyyatı canlandırmağın əsas yolu olan sahibkarlıq xüsusi diqqət kəsb edib. Ulu öndər deyirdi:* ***“Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur”.*** *Ümummilli lider gənc respublikanın gənc sahibkarlarına tövsiyə edirdi:* ***“Hər bir sahibkar, iş adamı unutmamalıdır ki, o həm öz mənafeyi, həm də ölkəmizin mənafeyi, ümumxalq mənafeyi üçün çalışmalıdır”.***

Artıq bu gün muxtar respublikada kifayət qədər sahibkarlıq təcrübəsi qazanılıb, güclü sahibkarlar təbəqəsi formalaşıb. Onlar arasında sağlam rəqabət mövcuddur. Bu da keyfiyyətli məhsul istehsalında başlıca amillərdən biridir. Keyfiyyət amilinə diqqət isə Naxçıvan məhsullarının xarici bazarlara çıxışı deməkdir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun ***“Sahibkarlığı inkişaf etdirmədən, kiçik və orta sahibkarlıq subyektlərini hərəkətə gətirmədən davamlı inkişafa nail olmaq mümkün deyildir. Bu gün sahibkarlıq qayğı mərhələsindən istehsal olunan mal və xidmətlərə görə məsuliyyət mərhələsinə keçməlidir. Muxtar respublika sahibkarları kəmiyyətlə yanaşı, keyfiyyət amilinə də ciddi diqqət yetirməlidirlər”*** tövsiyəsi sahibkarların məsuliyyətini daha da artırıb.

Əlbəttə, müasir texnoloji avadanlıqlar quraşdırılmadan və istehsal prosesində texniki standartlara əməl olunmadan keyfiyyətli məhsul istehsal etmək mümkün deyildir. Odur ki, Sahibkarlığa Kömək Fondunun dəstəyi ilə 2011-ci ildə fəaliyyətə başlayan “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti elə ilk gündən keyfiyyət amilini əsas götürüb. Bu günlərdə həmin müəssisədə olduq. Cəmiyyətin direktoru Emin Rzayev bildirdi ki, 2005 kvadratmetrlik sahədə yaradılan istehsal sahəsində müasir standartlara cavab verən avadanlıqlar quraşdırılıb. Belə ki, Türkiyənin “Pek makina”, “Forma makina LTD”, “Ar-Can”, “Alper” və “Makrev” firmalarının istehsalı olan həmin avadanlıqlar saatda 300 kiloqram vafli istehsalı gücünə malikdir. Müəssisədə vanilli, çiyələkli, bananlı, kakaolu, südlü tərkibdə “Tıq-tıq xanım”, “Şokolay” adları ilə 25 çeşiddə vafli bişirilir. Burada 2013-cü ildə qurabiyə və peçenye istehsalı sahəsi də yaradılıb. Bu istehsal sahəsində də saatda 300 kiloqram məhsul istehsal etmək olur. Burada “Naxçıvan”, “Məktəbli”, “Çay vaxtı”, “Möminə xatın”, “Yubiley” və sair adlarda 16 çeşiddə istehsal edilən peçenye və biskvit 35 qramdan 5 kiloqramadək nəfis tərtibatla bəzədilmiş taralarda qablaşdırılır.

Bir məqamı xüsusi vurğulamaq lazımdır. Bu da muxtar respublikamızdakı ərzaq məhsullarının istehsalında, yeyinti sənayesində yüksək dərəcədə gigiyenik qaydalara əməl olunmasıdır. Ona görə ki, insanların sağlamlığına verilən dəyər həm də gələcəyimizə göstərilən qayğıdır. İstehsal sahəsinin girişindən – dəyirmandan, xəmiryoğuran avadanlıqlardan başlamış anbaradək hər yerdə bütün gigiyenik qaydalara əməl olunması təqdirolunası haldır. Öyrəndik ki, müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlarla təmin edilmiş laboratoriya fəaliyyət göstərir. Laboratoriya vasitəsilə xammal və hazır məhsulların keyfiyyətinə ciddi nəzarət edilir. Müəssisəyə məxsus maşınlarla Naxçıvan şəhərində, digər şəhər və kənd yaşayış məntəqələrimizdə fəaliyyət göstərən ticarət obyektlərinə paylanılan məhsullar istehlakçılar tərəfindən razılıqla qarşılanır. Odur ki, müəssisənin istehsalı ildən-ilə artır. İstehsal edilən məhsulların yüksəkkeyfiyyətli olması həm də ölkəmizdə və ya xarici ölkələrdə keçirilən biznes forumlarda, sərgilərdə sahibkarların iştirakının təmin olunmasının, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən sahibkarların təcrübəsindən bəhrələnməyin nəticəsidir. Bu, bir tərəfdən əlaqələrin daha da genişləndirilməsinə, digər tərəfdən isə məhsulların Azərbaycanın digər regionlarında və xarici ölkələrdə alıcı tapmasına imkan verir. Bir vaxtlar Rusiya və Ukraynadan peçenye və vafli gözləyən Naxçıvan alıcılarının indi yüksək dad və keyfiyyətə malik yerli məhsullarla təmin olunmaları bu sahəyə dövlət qayğısının ifadəsi deyilmi? Bu məhsullar “Nati” tanıtım nişanı ilə Gürcüstan bazarına da ixrac edilir. Artıq İraq bazarına da çıxmağı qarşısına məqsəd qoyan müəssisə bu yöndə fəaliyyətini gücləndirir.

Bu gün sahibkarlığın inkişafı daxili bazarın keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaratdığı kimi, yeni iş yerlərinin yaradılması da həyata keçirilən iqtisadi siyasətə xidmət edir. “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti bu sahədə mühüm əhəmiyyət kəsb edir. Müəssisə yaradılanda burada 20 nəfər çalışırdısa, bu gün istehsal sahəsində 50 nəfərə yaxın insanın əməyindən istifadə edilir. Hər bir istehsal sahəsinin, sahibkarlıq obyektinin fəaliyyətə başlamasını eşidəndə dünənki qıtlıq günləri gözlərimiz önündə canlanır: işsiz insanlar, onların qayğılı baxışları, iş tapmaq, ailəyə çörək gətirmək ümidi ilə başqa yerlərə axın edən gənclər. Bu gün isə qürurverici günlər yaşayırıq, ona görə ki, hərtərəfli inkişaf insanların yaşayışının, firavan həyatının təmin olunmasına imkan verib.

**Hafizə ƏLİYEVA**

Eynəli bəy Sultanov – 150

*Hörmətli oxucular!*

Mən "Eynəli bəy Sultanovun folklorşünaslıq irsi" mövzusunda araşdırmalar aparıram. Bununla əlaqədar tez-tez Naxçıvan və Bakı şəhərlərindəki arxivlərdə, kitabxanalarda Eynəli bəyin folklorşünaslıq sahəsindəki fəaliyyətini öyrənir, alim və tədqiqatçıların Eynəli bəy Sultanov haqqındakı yazıları ilə tanış olur, həmin yazıları toplayıram.

Ötən il Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunda folklorşünas alim Almaz Hüseynova ilə söhbətimiz zamanı mənə ünvanladığı "Eynəli bəy Sultanovla bağlı xarici mətbuatda hər hansısa bir məqalə dərc olunubmu?" sualı qarşısında susmalı oldum. Çünki araşdırmalar apardığım zaman belə bir məqalə ilə qarşılaşmamışdım.

Həmin sualın davamında Almaz xanım bildirdi ki, elə bir məqalə Türkiyə mətbuatında dərc olunub. Həmin məqaləni axtarmağa başladım və bu işim nəticəsiz qalmadı. İstanbul Universitetinin kitabxanasından həmin məqaləni tapdım. Bu işdə mənə köməklik göstərən İstanbul Universitetinin gənc əməkdaşı Filiz Ferhadoğluna öz minnətdarlığımı bildirməliyəm. Məhz Filiz xanımın köməyi ilə Eynəli bəy Sultanov haqqında həlelik xarici mətbuatda dərc olunan ilk məqaləni üzə çıxara bildik.

Qeyd edim ki, 1971-ci ildə İstanbulda nəşr olunan "Böyük Türkiyə" jurnalındakı "Milli kültürçülərimizdən Eynəli Sultan" adlı həmin məqalənin müəllifi həmyerlimiz, dilçi-türkoloq, professor Əhməd Cəfəroğludur. Türkiyə türkcəsiylə nəşr olunan həmin məqaləni Azərbaycan türkcəsinə uyğunlaşdıraraq qəzetin oxucularına təqdim edirik.

**Elxan MƏMMƏDOV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı*

## Milli maarifçilərdən *Eynəli Sultan*

***Milli Azərbaycan mədəniyyətinin inkişafı üçün tarix boyunca maarif mübarizəsi aparanların arasında elə dəyərli insanlar vardır ki, bunlar, təəssüf ki, bu gün saysız-hesabsız Azərbaycan şəxsiyyətləri külliyyatı içərisində itib-batmışlar. Unudulmalarının başlıca səbəbi milli maarifin bir sahəsinə bağlanmadan müxtəlif milli vəzifələri yerinə yetirmələri olmuşdur. Həmin insanları bu gün yaddan çıxarmaq çox böyük insafsızlıq olar. Onlar həyatları boyunca milli mədəniyyətin keşiyində dayanmışlar. Azərbaycan maarif hərəkatının belə nümayəndələrindən biri də Eynəli Sultan olmuşdur.***



Yaxın dostu və həmyerlisi Cəlil Məmmədquluzadə tərəfindən Eynəli Sultan ləqəbiylə adlandırılan Eynəli bəy Sultanzadə milli Azərbaycan mədəniyyətinin hər sahəsində xidmət göstərmiş, köhnəliyə, cəhalətə, nadanlığa qarşı mübarizə aparmışdır.

Həyatının ən dəyərli mükafatı Cəlil Məmmədquluzadənin "maarif aləminə daxil eyləməsi" olmuşdur. Cəlil bəyin birbaşa bunu etiraf etməsi Eynəli Sultan lehinə qeyd ediləcək ən böyük məziyyətlərdən biridir. Həyatları boyunca bir-birinə bağlı qalmaları bu iki ayrılmaz dostun Azərbaycan mədəniyyəti tarixinin ən qiymətli üzvləri olduğuna dəlalət etməkdədir.

Çölüoğlu Eynəli bəy Sultanzadənin milli Azərbaycan maarifi savaşı cəbhəsində yer alması ötən əsrin ikinci yarısından sonrakı dövrə təsadüf edir. Əslən və nəslən naxçıvanlıdır. İlk təhsilini bu şəhərin köhnə məhəllə məktəbində aldıqdan sonra dərhal Tiflis Rus Klassik Gimnaziyasına daxil olmuşdur. (Görünür, Əhməd Cəfəroğlu bu məlumatı o dövrdə yazılan mənbələrdən götürüb. Halbuki Eynəli bəy Sultanov təhsilini Tiflis Rus Klassik Gimnaziyasında yox, İrəvan Kişi Gimnaziyasında davam etdirmişdir – E.M.) 1885-ci ildə o dövr üçün əhəmiyyətli olan bu təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. İlk mədəni səviyyəsini tamamladıqdan sonra dərhal doğulduğu Naxçıvana qayıtmış, yerli maarif aləminə daxil olmuşdur. Aldığı tərbiyə və müasir təhsilin təsiriylə olmalıdır ki, kəndlilərin həyatını yaxşılaşdırmaq üçün səy göstərmiş, özünə və ailəsinə aid torpaqları xalqa paylamışdır. Bu, gözlənilməz hadisə idi. Yerli sosial həyat üçün mədəni məclislər təşkil edərək gənclərlə ədəbi söhbətlər etmiş, onları müasir maarif və mədəniyyət sahəsində yetişdirməyə səy göstərmişdir. Hətta "Huşyar naxçıvanlılar" adlı bir maarif dərnəyi belə, yaratmışdır. Buraya Naxçıvanın tərəqqipərvər gəncləri və ziyalıları daxil olmuşdular. Türk, rus və Avropa fikir şəxsiyyətlərinə dair söhbətləri yığıncaqlarının ən vacib mövzularını təşkil etmişdir. Bu zaman sosial və siyasət, Vətən məsələləri də müzakirə edilərək xalqın inkişafı və maariflənməsi üçün çarələr axtarmışdır. Xalqı içində olduğu dərin qəflətdən qurtarmaq üçün böyük səy göstərmişdir. Eynəli bəyin bu dövrdəki yorulmaz fəaliyyətini hörmətlə xatırlayan vəfalı dostu Cəlil Məmmədquluzadə özünün də yetişdiyi bu mühitə minnət borcunu ödəmək üçün 13 sentyabr 1925-ci ildə Eynəli Sultana yazdığı məktubunda "Şura (Eynəli bəyin oğludur) ilə rubəru oturanda keçmiş günləri yada salırdım, elə bilirdim ki, mənim Eynəli qardaşım qırx il bundan qabaq yanımda oturub, cavanlıq həvəsiylə oxuduğu kitablardan, rus maarifindən, Avropa əhli-qələmlərindən şirin-şirin və bəzi vaxt yanıqlı-yanıqlı söhbət edir. O qədər məni özünə qulaq asdırdın ki, axırda doğrudan-doğruya məni maarif aləminə daxil eylədin" – deməklə ustadının üzərindəki haqqını da tanıma alicənablığını göstərmişdir.

Bununla da, yetinməmiş, Eynəli Sultanın istər özünə, istərsə də millətinə olan böyük xidmətini: "Yəqin bilirsən ki, sən olmasaydın, mən Avropa mədəniyyətini, rus mədəniyyətini öyrənə bilməzdim. Mən də qeyri sadəcə kənd müəllimlərinin içində yaddan çıxardım" cümləsiylə etiraf etmişdir. Nə qəribədir ki, Cəlil Məmmədquluzadə kimi bir şəxsiyyəti unudulmaqdan qurtaran Eynəli Sultan özü unudulub getmişdir.

Ustad satirik yazıçının bu qədər pərəstişkarlıqla bəhs etdiyi Eynəli bəyin sosial həyat inqilabı yolunda vücuda gətirdiyi təşkilat ilk Naxçıvan "Cəmiyyəti-xeyriyyə"si olmuşdur. Eynəli bəy bu dəfə ətrafına topladığı gənc qüvvələrlə Naxçıvan teatrının təməlini qoymuşdur. İlk olaraq səhnəyə qoyduğu Mirzə Fətəlinin pyeslərinin xalq arasında doğurduğu "çox mənfi" təsirə və hökumətin bir daha bu pyeslərin oynanılmasını qadağan etməsinə baxmayaraq, yenə də qulaq asmamış, bu milli maarif sahəsinin inkişafından geri çəkilməmişdir. Bu dəfə də "Xeyir" dərnəyi rəhbərliyi ilə "Kəl döyüşü", "Üsuli-cədid", "Tatarka" pyeslərini səhnəyə qoymuş, adətən, bu sənət şöbəsini öz himayəsi altına almışdır. Oynanılan tamaşalardan əldə edilən gəlirin yoxsul tələbələrin təhsilinə sərf edilməsi Eynəli bəyin türk maarifinə xidmətinin bir başlanğıcı olmuşdur. Bir çox məhrumiyyətlər içərisində öz evində göstərdiyi tamaşalarla teatr tamaşalarını ənənə halına gətirmişdir.

Eynəli Sultanın maarif və mədəniyyət sahəsindəki mübarizəsi bu qədəriylə kifayətlənməmişdir. Birbaşa müəllimlik etməklə maarifçilikdəki fəaliyyətlərinin hüdudlarını genişləndirmişdir. Geniş xalq mühitinin türk övladları, müasir məktəbləri xaricindəki təhsilini dini cəhətdən zərərli hesab edən dövrünün avam və ruhani cahilləri bütün imkanlarıyla Eynəli Sultana qarşı gələrək onu bu yolda da yox etməyə çalışmışlar. Eynəli bəy isə asanlıqla boyun əyəcək xasiyyətdə bir ziyalı olmadığına görə qorxmadan, çəkinmədən vəzifəsinə davam etmişdir. Çox təəssüf ki, çar hökuməti guya yaxşılıq olsun deyə, Eynəli Sultanı İrəvan şəhəri qəza məhkəməsi katibliyinə köməkçi olaraq təyin etmiş, onu öz ana qucağı olan mədəni ocağından uzaqlaşdırmışdır.

1905-ci ildə Rusiya daxilindəki iğtişaşlar təkrar Eynəli Sultanı Naxçıvana qayıtmağa məcbur etmişdir. Ruhunda bəslədiyi inqilabçılıq təsiriylə bu qarışıqlıqdan faydalanaraq özünü daim təqib edən rejimə və idarəçiliyə qarşı mübarizə cəbhəsini başlatmışdır. Qələmə aldığı məqalə, hekayə, pyes, satira və sair yazılarıyla həm cəhalət, həm də azadlığı boğan bütün rejim və idarəçilik tədbirlərinə qarşı ciddi mübarizə aparmış, milli mədəni azadlığın bayraqdarı olmuşdur.

***Qeyd:*** *Vaxtilə professor Əhməd Cəfəroğlunun unudulmuş ədib, maarif xadimi kimi qeyd etdiyi Eynəli bəy Sultanova da digər görkəmli ziyalılarımız kimi müstəqil Azərbaycan dövləti sahib çıxdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə bu il Eynəli bəy Sultanovun 150 illik yubileyi muxtar respublikamızda dövlət səviyyəsində qeyd olunur.*

Gənclik

## İdmançı qardaşların uğurları

### *İdmanı sevmək ailədən başlanmalıdır*



Tayfur



Sərxan

Muxtar respublikamızda sağlam gəncliyin yetişməsi üçün hərtərəfli şərait yaradılıb. Bu gün regionda idmanın kütləviliyinə nail olunub, ümumtəhsil məktəblərində stadionlar, idman zalları yenidən qurularaq və ya əsaslı təmir olunaraq gənclərimizin istifadəsinə verilib.

Gənclərimiz onlara yaradılan şəraitə, göstərilən qayğıya cavab olaraq idmanda yeni-yeni uğurlara imza atır, Azərbaycanı, o cümlədən muxtar respublikanı istər ölkə daxilində, istərsə də ölkədən xaricdə layiqincə təmsil edirlər.

Sirr deyil ki, uşağın sağlamlığı və fiziki inkişafının əsası ailədə qoyulur. Ailədə əsası düzgün qoyulmuş fiziki tərbiyə uşaq və yeniyetmələrin fiziki hazırlığını yüksəltməklə, sağlamlığını möhkəmləndirməklə yanaşı, onların təhsilinə, ictimai həyatda fəallıqlarının artmasına müsbət təsir göstərir. Bu baxımdan uşaqların idmana həvəsləndirilməsi yolları, ailənin fiziki tərbiyə ilə bağlı tutduğu mövqe günün tələblərinə uyğun olmalıdır. Belə ailələrdən biri də Naxçıvan şəhərində yaşayan Əliyevlər ailəsidir.

Bu ailənin övladları, Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri olan Tayfur və Sərxan Əliyev qardaşları respublika və muxtar respublika əhəmiyyətli bir çox yarışlarda uğurlar qazanıb, idmanı həyatlarının mühüm bir hissəsinə çeviriblər. Hər iki qardaşın idmana marağı 5-6 yaşlarından başlayıb. Boks idman növü üzrə mütəxəssis olan ataları Nəriman müəllim də onlarla fərdi formada məşğul olub. Övladlarının bu marağının getdikcə artdığını görən Nəriman Əliyev onları Naxçıvan Muxtar Respublikasının Boks Federasiyasına yönləndirib. Qardaşlar indi istər muxtar respublika, istərsə də beynəlxalq səviyyəli yarışlarda iştirak edir, bir çox uğurlar qazanırlar.

1997-ci il təvəllüdlü, Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi ixtisasında təhsil alan Tayfur Əliyev ilk məşqlərinə 2006-cı ildə başlayıb. Onun ilk məşq müəllimi Azərbaycan Respublikasının Əməkdar məşqçisi və Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Cavanşir Salayev olub. Hazırda isə məşq müəllimi Azərbaycan Respublikasının Əməkdar məşqçisi Məmmədəli Eyvazovdur.

Boksçu ilk uğurunu 2011-ci ildə Rusiya Federasiyasının Qroznı şəhərində qazanıb. O, məktəblilərin Avropa, 2012-ci ildə isə gənclərin Azərbaycan çempionatlarında və "Heydər Əliyev Kuboku" uğrunda yarışında bütün rəqiblərinə qalib gələrək qızıl medallar qazanıb. Elə həmin il Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən gənclərin Avropa çempionatında iştirak edib. 2013-cü il Tayfur Əliyev üçün daha uğurlu olub. O, yenidən gənclərin Azərbaycan çempionatında və "Heydər Əliyev Kuboku" uğrunda yarışında bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. Bununla yanaşı, Tayfur Rusiya Federasiyasının Anapa şəhərində gənclərin Avropa çempionatında iştirak edib, II yeri tutaraq gümüş medal qazanıb. 2014-cü ildə o, yeniyetmələrin Azərbaycan çempionatında da qızıl medala layiq görülüb.

2015-ci il Tayfur Əliyevin idman karyerası üçün yaddaqalan olub. O, Azərbaycan çempionatı və Böyük İpək Yolu beynəlxalq turnirində qızıl medal qazanıb. Bakı şəhərində keçirilən birinci Avropa Oyunlarında iştirak edib və bürünc medal qazanıb. Qətərin paytaxtı Doha şəhərində keçirilən Dünya çempionatında da iştirak edən Tayfur Əliyev 2016-cı ildə Macarıstanın Debretsen şəhərində keçirilən boks üzrə beynəlxalq turnirdə I yerə sahib olub.

Tayfur Əliyev Bakıda keçirilən birinci Avropa Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilib.

Sərxan Əliyev də idman sahəsində əldə etdiyi uğurlara görə heç də Tayfurdan geri qalmır. 1998-ci il təvəllüdlü, Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi ixtisasında təhsil alan Sərxan ilk məşqlərinə 2010-cu ildə başlayıb.

O, 2010-cu ildə Biləsuvar rayonunda keçirilən yeniyetmələrin III Respublika oyunlarında II yerə layiq görülərək ilk uğurunu qazanıb. 2011-ci ildə isə Biləsuvar rayonunda keçirilən yeniyetmələrin IV Respublika oyunlarında I yerə, Rusiya Federasiyasının Qroznı şəhərində keçirilən yeniyetmələrin Avropa birinciliyində III yerə layiq görülüb. 2012-ci ildə Sərxan Balakən rayonunda keçirilən yeniyetmələrin VII idman oyunlarında I yerə sahib çıxıb. O, Bakı şəhərində keçirilən Azərbaycan birinciliyinin qalibi olaraq, eyni zamanda ölkə çempionatının ən texnikalı boksçusu adına layiq görülüb. 2013-cü ildə Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində II yerin sahibi olub.

2014-cü ildə Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində I yerə, Naxçıvan şəhərində keçirilən "Heydər Əliyev – 91" Naxçıvan Muxtar Respublika turnirində I yerə, Bakı şəhərində keçirilən Abbas Ağalarov adına beynəlxalq turnirdə III yerə layiq görülüb.

Sərxan Əliyev 2015-ci ildə Bakı şəhərində keçirilən gənclərin Azərbaycan birinciliyində I yerə, 2016-cı ildə Bakı şəhərində keçirilən boks üzrə Azərbaycan çempionatında I yerə, Rusiya Federasiyasının Anapa şəhərində keçirilən Avropa çempionatında III yerə, Ukrayna Respublikasının Berdiçev şəhərində keçirilən Kliçko qardaşlarının mükafatı uğrunda beynəlxalq turnirdə III yerə sahib çıxıb.

Göründüyü kimi, ailə övladlarının fiziki cəhətdən sağlam yetişdirilməsinə, vətənpərvər ruhda böyüməsinə maraqlı olub ki, gənc idmançı qardaşlar da böyük uğurlara imza atıblar.

Bütün bu deyilənlərin nəticəsi olaraq qeyd etmək yerinə düşər ki, övladlarımızı idmana cəlb etmək üçün yaradılan şəraitdən düzgün istifadə etsək, muxtar respublikamızda Tayfur və Sərxan Əliyev qardaşları kimi idmançıların sayı daha çox olar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV



Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az



Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 819